# VƏTƏNDAŞIN BÜDCƏ BƏLƏDÇİSİ



2022

# Mündəricat


BİZİM BÜDCƏMİZ ........................................2
ÖLKƏMİZİN BÜDCƏ SİSTEMİ.....................3
BÜDCƏ NECƏ VƏ NƏ VAXT TƏRTİB OLUNUR? ....................................................4
DÖVLƏT BÜDCƏSİNİN STRUKTURU .........5
BÜDCƏNİN GƏLİR VƏ XƏRCLƏRİ ARASINDAKI FƏRQ....................................6
BÜDCƏ XƏRCLƏRİ .....................................7
BÜDCƏNİN GƏLİRLƏRİ NECƏ FORMALAŞİR? ...........................................8
YOLA SALDIĞIMIZ İLİN DÖVLƏT BÜDCƏSİNƏ BAXIŞ ....................................9
2022-Cİ İLİN MAKROİQTİSADİ PROQNOZLARI NƏ VƏD EDİR? ................11
2022-Cİ İLİN İCMAL BÜDCƏSİ ..................12
2022-Cİ İLİN DÖVLƏT BÜDCƏSİ ...............14
2022-ci il üzrə büdcə-vergi siyasətinin əsas istiqamətləri ........................................15
Gəlirlər üzrə siyasətin əsas istiqamətləri .....16
Xərclər üzrə siyasətin əsas istiqamətləri .....17
2022-ci ildə büdcə bİzə nə verəcəkdir? .......18
DÖVLƏT BÜDCƏSİNİN GƏLİRLƏRİ ..........20
Büdcə gəlirlərinin strukturu ..........................21
DÖVLƏT BÜDCƏSİNİN XƏRCLƏRİ...........25
Büdcə xərclərinin funksiyalar üzrə əsas istiqamətləri ..................................................27
TƏHSİL XƏRCLƏRİ .....................................28
ELM XƏRCLƏRİ...........................................30
SƏHİYYƏ XƏRCLƏRİ..................................31
SOSİAL MÜDAFİƏ VƏ SOSİAL TƏMİNAT XƏRCLƏRİ ..................34
MƏDƏNİYYƏT, İNCƏSƏNƏT, İNFORMASİYA, BƏDƏN TƏRBİYƏSİ, GƏNCLƏR SİYASƏTİ .................................37
Müdafiə və milli təhlükəsizlik, məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq orqanlarının saxlanılması .........40
Kənd təsərrüfatı xərcləri ..............................41
Mənzil və kommunal təsərrüfatı xərcləri ......42
Ətraf mühitin mühafizəsi xərcləri .................42
İqtisadi fəaliyyət üzrə xərclər .......................43
Əsas bölmələrə aid edilməyən xərclər ........44
ƏSASLI XƏRCLƏRİN İSTİQAMƏTLƏRİ ....45
İşğaldan azad olunmuş ərazilərin yenidənqurulması .........................................45
Dövlət investisiya proqramı .........................45
Xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə xərclər...................................46
Digər əsaslı xərclər.......................................46
DÖVLƏT BORCU ..........................................48
Dövlət borclarına xidmətə nə qədər vəsait ayrılıb?.........................................................49
2022-ci ildə icazə verilən borclanma............49
Beynəlxalq fəaliyyət və xarici yardımlar üzrə xərclər.........................................................50
Büdcənin yerli gəlir və xərcləri.....................51
Dövlət büdcəsi kəsirinin həddi və maliyyələşdirilməsi......................................52

# VƏTƏNDAŞIN BÜDCƏ BƏLƏDÇİSİ



# BİZİM BÜDCƏMİZ

Hər bir vətəndaşın, onun ailə üzvlərinin yaxşı yaşayışı və rifahı onun büdcəsini necə idarə etməsindən asılıdır. Ailə öz büdcəsini qazanc (gəlirləri) və xərcləri düzgün planlamaqla nizamlayır. Gəlirləri elə ağıl və düşüncə ilə idarə etmək, elə səmərəli xərcləmək lazımdır ki, ailə daha çox faydasını görsün.

Dövlət də bir ailədir, dövlətin də öz büdcəsi vardır, bu büdcə hər bir vətəndaşın yaşayışı, rifahı üçün tərtib olunur. Dövlət öz gələcək maliyyə planlarını təmin etmək üçün büdcənin gəlir və xərclərinin quruluşunu tərtib edir. Hər il büdcə layihəsinin hazırlanmasında dünyada və ölkəmizdə baş verənlər, həmçinin, ölkəmizin həyatında yaranan ictimai-sosial və iqtisadi hadisələrin tələblərinə uyğun olaraq meydana çıxan yeniliklər, əhəmiyyətli dəyişikliklər əsas rol oynayır.

Əvvəlki illərin büdcəsindən həcm və ünvanlılığı ilə fərqlənən 2022-ci ilin dövlət büdcəsi ölkəmizin qədəm qoyduğu yeni mərhələni, qarşıda duran çağırışları və reallıqları özündə əks etdirir. Büdcə sənədi əhalinin sosial müdafiəsinin və yaşayış səviyyəsinin yüksəldilməsi, ölkəmizin müdafiə qabiliyyətinin gücləndirilməsi və təhlükəsizliyinin təmin edilməsi, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışı təmin edəcək sürətli bərpa və yenidənqurma işlərinin görülməsi və iqtisadi inkişafın stimullaşdırılması üçün hökumət tərəfindən ardıcıl tədbirlərin həyata keçirilməsinə zəmin yaradacaqdır.

Vətəndaş öz həyatında xüsusi rol oynayan büdcə sənədində özünə lazım olan bütün məlumatları tapmalıdır. Ona görə də, Maliyyə Nazirliyi tərəfindən hazırlanan "Vətəndaşın Büdcə Bələdçisi"ndə də bu məqamlara xüsusi üstünlük verilib.



# ÖLKƏMİZİN BÜDCƏ SİSTEMİ



# BÜDCƏ NECƏ VƏ NƏ VAXT TƏRTİB OLUNUR?

*Dövlət büdcəsinin layihəsi "Büdcə sistemi haqqında" Qanunun 11-ci maddəsinə uyğun olaraq hazırlanır.*

**Yanvar ayı**

Bu ayın 3-cü ongünlüyündə Nazirlər Kabinetinin qərarı və ya sərəncamı ilə növbəti il və sonrakı üç il üçün dövlət büdcəsinin layihəsinin tərtibi prosesinə başlanılır. Bu prosesdə aidiyyatı orqanlara - Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Statistika Komitəsi, rayon və şəhər icra hakimiyyəti orqanlarına və digər dövlət orqanlarına müvafiq tapşırıqlar verilir.

**Fevarl-mart ayları**

İqtisadiyyat Nazirliyi ölkənin ortamüddətli iqtisadi və sosial inkişaf proqnozlarını hazırlayır. Həmin proqnozlar əsasında Maliyyə Nazirliyi dövlət və icmal büdcələrin ilkin ortamüddətli proqnozunu tərtib edir.
Hazırlanmış sənədlər Maliyyə və İqtisadiyyat nazirlikləri tərəfindən Nazirlər Kabinetinə təqdim edilir.

**Aprel ayı**

Maliyyə Nazirliyi büdcə layihəsini və sonrakı üç il üçün icmal büdcə göstəricilərinin tərtibinə dair təlimat məktubunu may ayının 1-nə kimi büdcənin tərtibi prosesində iştirak edən təşkilatlara göndərilir.

**May ayı**

Dövlət büdcəsinin gəlirlərinin təmin edən orqanlar və büdcədən maliyyələşən və maliyyə yardımı alan təşkilatlar təlimat məktubuna uyğun olaraq hazırlanmış büdcə layihəsini Maliyyə Nazirliyinə təqdim edirlər.

**İyun-iyul ayları**

İqtisadiyyat Nazirliyi tərəfindən həmin ilin altı ayının faktiki nəticələri nəzərə alınmaqla növbəti il üzrə və ortamüddətli makroiqtisadi göstəricilər, habelə sosial, iqtisadi və investisiya proqramları dəqiqləşdirilir. Maliyyə Nazirliyi isə dəqiqləşdirilmiş proqnoz və hazırlanmış proqramlara əsasən dövlət büdcəsinin layihəsində gəlirləri və xərcləri yenidən hesablayır.

**Avqust ayı**

Dəqiqləşdirilmiş göstəricilər dövlət büdcəsindən maliyyələşən və maliyyə yardımı alan təşkilatlarla razılaşdırılır və müvafiq qaydada rəsmləşdirilir. Maliyyə Nazirliyi dövlət büdcəsinin və icmal büdcənin layihəsini və sonrakı üç il üçün icmal büdcənin göstəricilərini Nazirlər Kabinetinə və Hesablama Palatasına təqdim edir.

**Sentyabr ayı**

Nazirlər Kabineti büdcə sənədlərini Prezidentə təqdim edir.

**Oktyabr ayı**

Büdcə layihəsi oktyabr ayının 15-dən gec olmayaraq Prezident tərəfindən Milli Məclisin müzakirəsinə təqdim edilir.

**Noyabr-dekabr ayları**

Dövlət büdcəsinin və icmal büdcənin layihələri parlamentin komitələrində və plenar iclaslarda müzakirə edilərək qəbul olunur.

**Dekabr ayı**

Büdcə layihəsi haqqında qanun dövlət başçısı tərəfindən imzalanaraq qüvvəyə minir.

***Təsdiq olunmuş dövlət büdcəsinin göstəriciləri, gəlir və xərclərin bölgüsü Maliyyə Nazirliyi tərəfindən bir ay müddətinə büdcə və büdcədən maliyyə yardımı alan təşkilatlara çatdırılır.***

# DÖVLƏT BÜDCƏSİNİN STRUKTURU

Azərbaycanda büdcə prosesi ölkə Konstitusiyası, "Büdcə sistemi haqqında" Qanun, Vergi Məcəlləsi, "Dövlət büdcəsinin tərtibi və icrası qaydaları", "Ortamüddətli xərclər çərçivəsinin hazırlanması Qaydası" və digər normativ-hüquqi aktlar vasitəsi ilə tənzimlənir və həmin sənədlərə uyğun olaraq həyata keçirilir.

**Büdcə mövcud sosial-iqtisadi vəziyyətin təhlili və növbəti ilin (illərin) vəziyyətinin proqnozları nəzərə alınmaqla hazırlanır.**

**Gəlir** | **Xərc** | **Fərq**

## GƏLİRLƏR

### MƏRKƏZLƏŞDİRİLMİŞ GƏLİRLƏR

- Dövlət Vergi Xidmətinin daxilolmaları
- Dövlət Gömrük Komitəsinin daxilolmaları
- Dövlət Neft Fondundan daxilolmalar
- Büdcə təşkilatlarının büdcədənkənar daxilolmaları
- Sair gəlirlər

### YERLİ GƏLİRLƏR

- Ayrı-ayrı şəhər və rayonlar üzrə gəlirlər

# Büdcənin gəlir və xərcləri arasındakı fərq




## BALANSLI BÜDCƏ

Büdcənin gəlirləri onun xərcləri ilə eyni olduqda– ***balanslaşdırılmış büdcə*** adlanır.




## BÜDCƏ KƏSİRİ

Büdcənin gəlirləri onun xərclərindən az olduqda – ***büdcə kəsiri və ya büdcə defisiti*** adlanır.




## BÜDCƏ ARTIQLIĞI

Büdcənin gəlirləri onun xərclərini üstələdikdə – ***büdcə artıqlığı*** və ya ***büdcə profisiti*** adlanır.

# Büdcə xərcləri

**XƏRCLƏR**

- **MƏRKƏZLƏŞDİRİLMİŞ XƏRCLƏR**
- **YERLİ XƏRCLƏR**

Büdcə xərcləri məqsədindən asılı olaraq **funksional, iqtisadi** və **inzibati** prinsiplər əsasında qruplaşdırılır. Bu qruplaşdırma **büdcə təsnifatı** adlanır. Misal üçün funksional təsnifat üzrə büdcə xərcləri aşağıdakı kimi qruplaşdırılır:

## FUNKSİONAL BÖLGÜ



1. Ümumi dövlət xidmətləri
2. Müdafiə və milli təhlükəsizlik
3. Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq
4. Təhsil
5. Səhiyyə
6. Sosial müdafiə və sosial təminat
7. Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət
8. Mənzil və kommunal təsərrüfatı
9. Kənd təsərrüfatı
10. Ətraf mühitin mühafizəsi
11. İqtisadi fəaliyyət
12. Əsas bölmələrə aid edilməyən xidmətlər

# Büdcənin gəlirləri necə formalaşır?




Dövlət öz gəlirlərini və xərclərini tarazlaşdırmaq yolu ilə büdcəsini formalaşdırır. Əgər gəlirlər qarşıya qoyulmuş məsələlərin maliyyə təminatına imkan verirsə, onu təsdiq edir. Yox, əgər xərcləri gəlirləri üstələyərsə, onda bir sıra xərcləri ixtisar etməyə, hətta xərclərin müəyyən hissəsini növbəti illərə keçirməyə, bu da bəs etmədikdə xərclərinin gəlirlə örtülməyən hissəsinin, yəni kəsirinin bağlanması üçün maliyyəşdirmə mənbələri axtarmağa məcbur olur.

Büdcə layihələrinin hazırlanması zamanı gəlir və xərclərin qruplaşdırılması, onların müqayisəsi təmin edilir.

# Büdcə  gəlirlərinin formalaşma mənbələri

Dövlət büdcəsinin gəlirləri bir neçə mənbələrdən formalaşır. Bura vergilər, rüsumlar, qrantlar və digər gəlirlər aiddir.




►**Vergilərə –** fiziki şəxslərin gəlir, torpaq və əmlak vergiləri, hüquqi şəxslərin mənfəət, torpaq və əmlak vergiləri, əlavə dəyər vergisi, aksiz vergisi və s. daxildir.

►**Rüsumlara –** gömrük rüsumları və digər dövlət rüsumları daxıldir.

►**Qrantlara** – beynəlxalq təşkilatlardan alınmış maliyyə vəsaitləri daxildir.

►**Digər gəlirlərə** – dövlət mülkiyyətində olan əmlakın icarəyə verilməsindən, büdcə təşkilatlarının ödənişli xidmətlərindən, səhmlərində dövlət payı olan müəssisələrdən alınan dividendlərdən, sərbəst qalığın idarəedilməsindən, cərimələrdən, büdcədən verilmiş kreditlər üzrə və xarici dövlətlərə verilmiş kreditlərdən daxilolmalar aiddir.

# YOLA SALDIĞIMIZ İLİN DÖVLƏT BÜDCƏSİNƏ BAXIŞ

2020-ci ildə dünyanı əhatə edən COVID-19 pandemiyası Azərbaycan iqtisadiyyatından da yan keçməyib və iqtisadiyyatın bir sıra sahələrində geriləmə müşahidə olunub. Pandemiyanın iqtisadiyyata mənfi təsirlərinin azaldılması, əhalinin sosial rifahının qorunması və iqtisadi inkişafın davamlılığının təmin edilməsi üçün dövlət tərəfindən həyata keçirilən tədbirlər nəticəsində iqtisadiyyatın tənəzzül fazasına daxil olmasını əngəlləmək mümkün olmasa da, daha kəskin enişin qarşısı alınıb, dövlət borcu və büdcə kəsiri əlverişli səviyyədə saxlanılıb.

Bununla belə, pandemiyanın təsirlərinin azaldılması istiqamətində atılan addımlar, xüsusən ilin əvvəlindən etibarən vaksinasiyanın geniş surətdə tətbiqi və karantin rejiminin effektiv idarə olunması iqtisadi fəallığın artmasına zəmin yaradıb. Bunun nəticəsi olaraq 2021-ci ilin may ayından iqtisadi bərpa prosesi başlanıb.



Belə ki, 2021-ci ilin ilk 10 ayının statistikasına əsasən, 2020-ci ildə əlavə dəyər istehsalında mövcud olan mənfi meyllər artımla əvəz olunub. İqtisadi canlanma xüsusilə kənd təsərrüfatı, informasiya və rabitə, nəqliyyat və ticarət sektorlarında müşahidə edilib.

**2021-ci ilin ilk on ayında real ifadədə ÜDM 4,9 faiz artımla 71,6 milyard manat, qeyri-neft ÜDM isə 5,9 faiz artımla 45,3 milyard manat təşkil edib.**

2021-ci ildə həyata keçirilən makroiqtisadi sabitliyə və artıma yönəlmiş siyasət digər sosial-iqtisadi artım göstəricilərdə də əksini tapıb. Ötən 10 ay ərzində inflyasiya təkrəqəmli səviyyədə saxlanılıb, manatın ABŞ dollarına nisbətdə məzənnəsinin dayanıqlığı qorunub, əhalinin gəlirləri və orta aylıq əməkhaqqı yüksəlib və qeyri-neft məhsullarının ixracı əhəmiyyətli dərəcədə artıb.

2020-ci ildə kəsirlə icra olunan icmal büdcədə 2021-ci ilin ilk 10 ayında artıqlıq yaranıb. Bu, gəlirlərin əhəmiyyətli artımı və xərclərin azalması hesabına baş verib. Eyni zamanda dövlət büdcəsinin qeyri-neft gəlirlərində artım qeydə alınıb.

Ötən dövr ərzində dövlət büdcəsinin xərclərinin tərtibində işğaldan azad olunan ərazilərin bərpası və yenidən qurulması, ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi, əhalinin sosial müdafiəsi, pandemiyanın nəticələrinin aradan qaldırılması, qeyri-neft sektorunun inkişafı diqqət mərkəzində saxlanılıb. Dövlət büdcəsinin xərclərinin artımı əsasən, müdafiə və milli təhlükəsizlik xərclərinin artımı hesabına baş verib.



# 2022-Cİ İLİN MAKROİQTİSADİ PROQNOZLARI NƏ VƏD EDİR?

2021-ci ildə başlayan iqtisadi artım prosesinin növbəti ildə də davam edəcəyi gözlənilir. Proqnozlara əsasən, iqtisadi artım templərinin bərpa edilməsi ilə ölkədə ÜDM-in həcminin 2021-ci ilin sonuna 82,6 milyard manata, 2022-ci ilin sonuna isə 86,6 milyard manata çatacağı gözlənilir.

İqtisadiyyatın şaxələndirilməsi və iqtisadi artımın neft sektorundan qeyri-neft sektoruna doğru dəyişməsi ilə qeyri-neft sektorundan daxilolmaların artması müşahidə olunacaqdır. Növbəti ildə neft sektorunda 1,8 faiz, qeyri-neft sektorunda isə 4,9 faiz artım proqnozlaşdırılır. Bununla yanaşı, ÜDM-in tərkibində qeyri-neft sektorunun payının 70 faizə qədər artması gözlənilir.

Qlobal miqyasda qiymət artımının təsiri ilə 2021-ci ildə 6 faizə qədər artması gözlənilən inflyasiya göstəricisinin növbəti ildə 4 faizə qədər enəcəyi proqnozlaşdırılır. Makroiqtisadi sabitliyin qorunması məqsədilə milli valyutanın mübadilə məzənnəsinin sabit qalması dəstəklənəcəkdir. Növbəti ildə real ifadədə əsas kapitala yönəldiləcək investisiyaların 3,4 faiz, əhalinin gəlirlərinin 4,2 faiz, orta aylıq əmək haqqının 4,5 faiz artması proqnozlaşdırılır. Eyni zamanda qeyd olunmalıdır ki, işğaldan azad edilən ərazilərdə quruculuq işlərinin aparılması, regionda kommunikasiyaların bərpası ölkənin iqtisadi potensialının güclənməsinə mühüm töhfə verəcəkdir.






# 2022-Cİ İLİN İCMAL BÜDCƏSİ

**GƏLİRLƏR: 27 milyard 685 milyon manat**

Bu, 2021-ci illə müqayisədə 3 milyard 857 milyon manat və ya 16,2 faiz çoxdur.

**XƏRCLƏR: 32 milyard 914 milyon manat**

Bu, 2021-ci illə müqayisədə 1 milyard 751 milyon manat və ya 5,6 faiz çoxdur.

## DÖVLƏT NEFT FONDU

**Dövlət Neft Fondunun 2022-ci il üçün büdcəsinin gəlirləri 10 milyard 589,7 milyon manat nəzərdə tutulur.**

*Bu, 2021-ci illə müqayisədə 2 milyard 588,5 milyon manat və ya 32,4 faiz çoxdur.*

**Dövlət Neft Fondunun 2022-ci il üçün büdcəsinin xərcləri 12 milyard 755,7 milyon manat təşkil edəcəkdir.**

*Bu, 2021-ci illə müqayisədə 535,2 milyon manat və ya 4,4 faiz çoxdur.*

**Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertin yuxarı həddi 12 milyard 710 milyon manata bərabərdir.**

## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ BÜDCƏSİ

**Naxçıvan Muxtar Respublikasının 2022-ci il üçün büdcəsinin gəlirləri 577,6 milyon manat nəzərdə tutulur.**

*Bu, 2021-ci illə müqayisədə 71,1 milyon manat və ya 14 faiz çoxdur.*

**Naxçıvan Muxtar Respublikasının 2022-ci il üçün büdcəsinin xərcləri 577,6 milyon manat təşkil edəcəkdir.**

*Bu, 2021-ci illə müqayisədə 71,1 milyon manat və ya 14 faiz çoxdur.*

## DÖVLƏT SOSİAL MÜDAFİƏ FONDU

**Dövlət Sosial Müdafiəsi Fondunun 2022-ci il üçün büdcəsinin gəlirləri 5 milyard 306,8 milyon manat nəzərdə tutulur.**

*Bu, 2021-ci illə müqayisədə 160,7 milyon manat və ya 3,1 faiz çoxdur.*

**Dövlət Sosial Müdafiəsi Fondunun 2022-ci il üçün büdcəsinin xərcləri 5 milyard 306,8 milyon manat təşkil edəcəkdir.**

*Bu, 2021-ci illə müqayisədə 160,7 milyon manat və ya 3,1 faiz çoxdur.*

**Dövlət Sosial Müdafiəsi Fonduna dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün ayrılan vəsait 1 milyard 146 milyon manat təşkil edəcək.**

*Bu, 2021-ci ilin proqnozu ilə müqayisədə 485,6 milyon manat və ya 29,8 faiz azdır.*

## İŞSİZLİKDƏN SIĞORTA FONDU

**İşsizlikdən Sığorta Fondunun 2022-ci il üçün büdcəsinin gəlirləri 180,4 milyon manat nəzərdə tutulur.**

*Bu, 2021-ci illə müqayisədə 22,6 milyon manat və ya 14,3 faiz çoxdur.*

**İşsizlikdən Sığorta Fondunun 2022-ci il üçün büdcəsinin xərcləri 180,4 milyon manat təşkil edəcəkdir.**

*Bu, 2021-ci illə müqayisədə 22,6 milyon manat və ya 14,3 faiz çoxdur.*



**İCMAL BÜDCƏ – "Büdcə sistemi haqqında" Qanuna əsasən, dövlət büdcəsinin, Naxçıvan MR-nın büdcəsinin və büdcədənkənar dövlət fondlarının gəlir və xərclərini funksional və iqtisadi təsnifata uyğun paraqraflar səviyyəsində əks etdirir.**






Bir qayda olaraq, icmal büdcənin gəlir və xərclərində aşağıda qeyd olunan məbləğlər nəzərə alınmır.

***2022-ci ilin icmal büdcəsinin gəlir və xərclərində nəzərə alınmayan məbləğlər***

**12 milyard 710 milyon manat**
(Dövlət Neft Fondundan ediləcək transfertin həcmi)

**431,6 milyon manat**
(dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasına verilən dotasiya)

**1 milyard 146 milyon manat**
(Dövlət büdcəsindən Dövlət Sosial Müdafiə Fonduna transfertin həcmi)

**1 milyard 477 milyon manat**
(Dövlət büdcəsindən maliyyələşən təşkilatların Dövlət Sosial Müdafiə Fonduna ayırmaları)

**20,5 milyon manat**
(Dövlət büdcəsindən maliyyələşən təşkilatların İşsizlikdən sığorta fonduna ayrılan vəsaitin həcmi)

## İcmal büdcənin kəsiri

**2022-ci ilin icmal büdcəsinin kəsiri 5 milyard 229 milyon manat təşkil etməklə 2021-ci illə müqayisədə 2 milyard 106,3 milyon manat və ya 28,7 faiz azdır.**

**Kəsir proqnozlaşdırılan ÜDM-in 6 faizinə bərabər olacaqdır ki, bu da 2021-ci illə müqayisədə 2,9 faiz bəndi azdır.**

# 2022-Cİ İLİN DÖVLƏT BÜDCƏSİ

**2022-ci ilin dövlət büdcəsi əhalinin sosial müdafiəsinin təmin edilməsi, ölkəmizin müdafiə qabiliyyətinin gücləndirilməsi, işğaldan azad edilmiş ərazilərə bərpası nəzərə alınmaqla hazırlanıb.**

Büdcə sənədində işğaldan azad olunan ərazilərdə bərpa və yenidənqurma işlərinin aparılması, sosial-iqtisadi, enerji, kommunal, nəqliyyat infrastrukturunun yaradılması, vaxtı ilə təcavüzə məruz qalmış soydaşlarımızın Qarabağa və Zəngəzura Böyük Qayıdışının təmin edilməsi, həmin ərazilərdə işgüzar fəaliyyətin təşkili üçün maliyyə təminatını əks etdirir. Ölkəmizin müdafiə qabiliyyətinin gücləndirilməsi və təhlükəsizliyin təmin edilməsi əvvəlki illərdə olduğu kimi büdcənin əsas xərc istiqamətlərindən biridir.

**Büdcə tərtib edilərkən aşağıdakı mühüm sənədlərə istinad edilib:**

- "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanun layihəsi və Qanun layihəsinə dair izahat
- 2022-ci il və növbəti üç il üçün iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri
- 2022-ci il üçün büdcə-vergi siyasətinin əsas istiqamətləri
- 2022-ci il dövlət büdcəsinin gəlirləri və xərclərinin funksional, iqtisadi və inzibati təsnifatlar üzrə bölgüsünün paraqraflar səviyyəsində təqdimatı layihəsi
- Dövlət borcları və dövlət zəmanəti ilə digər öhdəliklərə dair məlumat və digər sənədlər.

2022-ci il üzrə büdcə siyasətinin istiqamət və hədəfləri mövcud qlobal iqtisadi çağırışlar, eləcə də **"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"** sənədində müəyyən edilmiş prioritetlər və onların həyata keçirilməsi üçün qarşıya qoyulmuş strateji məqsədlər nəzərə alınmaqla müəyyən edilib.

Hazırda Nazirlər Kabinetinin 2021-ci il 27 fevral tarixli 161s nömrəli sərəncamına əsasən, *2022-2026-cı illər üçün sosial-iqtisadi inkişaf Strategiyası* hazırlanır, həmin sənəd təsdiq olunduqdan sonra zərurət yarandığı təqdirdə, 2022-ci ilin dövlət büdcəsinə qanunvericiliyə uyğun olaraq müvafiq dəyişikliklər ediləcəkdir.

# 2022-ci il üzrə büdcə-vergi siyasətinin əsas istiqamətləri

Qlobal iqtisadi çağırışlar nəzərə alınmaqla 2022-ci il üzrə büdcə-vergi siyasətinin aşağıdakı istiqamətlərdə həyata keçirilməsi nəzərdə tutulur:

- Dövlətin əsas funksiyalarının, o cümlədən müdafiə və təhlükəsizlik, sosial təminat, səhiyyə, təhsil, dövlət borcu, prioritet dövlət proqramları və layihələri üzrə maliyyələşdirmənin davam etdirilməsi, əhalinin sosial rifahının qorunmasına yönəlmiş tədbirlərin və iqtisadi artımın dəstəklənməsi;
- Büdcə qaydasının təkmilləşdirilməsi və tətbiqinin bərpası;
- Ortamüddətli dövr ərzində dövlət büdcəsinin gəlir və xərclərinin ahəngdarlığının təmin edilməsi, büdcə qaydası çərçivəsində müəyyən olunmuş meyarların gözlənilməsi, Dövlət Neft Fondunun aktivlərinin iqtisadi təhlükəsizliyi təmin edən səviyyədə qorunması, işğaldan azad edilmiş ərazilərdə yenidənqurma işlərinin, habelə dövlətin əsas funksiyalarının maliyyələşdirilməsi məqsədilə dövlət borclanmasının daha aktiv istifadəsi;
- Ortamüddətli Xərclər Çərçivəsinin (OMXÇ) tətbiqi və nəticəəsaslı büdcə mexanizminə keçidlə bağlı islahatların davam etdirilməsi;
- Dövlət investisiyalarının tədricən özəl investisiyalarla əvəzlənməsi;
- Dövlət maliyyəsinin idarə edilməsində şəffaflığın və hesabatlılığın artırılması.



# Gəlirlər üzrə siyasətin əsas istiqamətləri

Ortamüddətli dövrdə gəlir siyasətinin əsas istiqamətləri dövlət büdcəsinin qeyri-neft gəlirlərinin artırılmasının təmin edilməsi fonunda kölgə iqtisadiyyatının, qeyri-rəsmi məşğulluğun səviyyəsinin azaldılması və şəffaflığın artırılması, qeyri-neft ixracının stimullaşdırılması və nomenklaturasının genişlənməsi üçün mühüm rol oynayacaqdır.

***2022-2025-ci illərdə qeyd olunanlarla bağlı aşağıdakı büdcə-vergi siyasəti tədbirlərinin həyata keçirilməsi nəzərdə tutulur.***

- İnvestisiya və sahibkarlıq mühitinin vergi yolu ilə təşviq edilməsi;
- Ölkənin beynəlxalq reytinqlərdə mövqeyinin möhkəmləndirilməsi və xarici investorların maraqlarının artırılması üçün vergi qanunvericiliyinin mütərəqqi beynəlxalq praktikaya uyğun təkmilləşdirilməsinin təmin edilməsi;
- Kölgə iqtisadiyyatı ilə sistemli mübarizənin davam etdirilməsi və ədalətli rəqabət mühitinin dəstəklənməsi;
- Vergi uçotu siyasətində rəqəmsallaşmanın və hesabatlılığın genişlənməsi, uçot siyasətində gəlir və xərclər də daxil olmaqla, sahəvi yanaşmanın tətbiqi və vergi nəzarəti metodlarının təkmilləşdirilməsi;
- Ortamüddətli dövr üçün elektron mühasibatlığın tətbiqinin genişləndirilməsi;
- Vergi və gömrük sahəsində verilmiş güzəşt və azadolmaların dövlət büdcəsinin gəlirlərinə təsirinin, həmçinin büdcə, iqtisadi və sosial baxımdan səmərəliliyinin mütəmadi qiymətləndirilməsi.



# Xərclər üzrə siyasətin əsas istiqamətləri

Dövlət büdcəsində xərclərin əsas istiqamətləri – dövlətin əsas funksiyalarının təmin edilməsi, o cümlədən sosial təminat, səhiyyə, təhsil, müdafiə və təhlükəsizlik, dövlət borcuna xidmətlə bağlı xərclərin maliyyələşdirilməsi, eləcə də iqtisadi artımın davamlılığının dəstəklənməsi məqsədilə prioritet dövlət proqramlarının və layihələrinin maliyyələşdirilməsidir.

***2022-ci ildə isə büdcə xərcləri müəyyən edilərkən əlavə olaraq bir sıra mühüm məsələlər nəzərə alınıb. Onlar aşağıdakılardır:***

- Əməkhaqlarının əmək məhsuldarlığı ilə uzlaşdırılmaqla layiqli həyat səviyyəsinin təmin edilməsi;
- Əhalinin sosial müdafiəsi, sosial ödənişlərin indeksasiyası, əhalinin mənzil və məişət şəraitinin yaxşılaşdırılması məqsədilə güzəştli ipoteka kreditlərinin verilməsi və sosial mənzillərin tikintisi, müharibə veteranlarının, əlil və şəhid ailələrinin sosial vəziyyətinin və məişət şəraitinin yaxşılaşdırılması;
- Səhiyyə sisteminin müasir tələblərə cavab verən səviyyəyə çatdırılması, insanların sağlamlığının qorunması, vaksinasiyanın davam etdirilməsi;
- İşğaldan azad edilmiş ərazilərdə yenidənqurma və bərpa işləri, müasir və innovativ iqtisadi sahələrin yaradılması, infrastrukturun qurulması, kənd təsərrüfatı və turizmin formalaşdırılması, beynəlxalq və regional nəqliyyat-logistika dəhlizinin bərpası;
- Ölkənin müdafiə qabiliyyətinin və təhlükəsizliyinin gücləndirilməsi, işğaldan azad edilmiş ərazilərdə dövlət sərhədlərinin bərqərar edilməsi, ərazilərin minalardan təmizlənməsi, ordunun maddi-texniki bazasının möhkəmləndirilməsi, müdafiə sənayesinin təkmilləşdirilməsi üçün maliyyə təminatının yaradılması;
- Yüksək rəqabətli insan kapitalının formalaşdırılması üçün müasir və güclü təhsil sisteminin qurulması və inkişaf etdirilməsi, XXI əsrin tələblərinə uyğun təhsilin təmin edilməsi;
- Yaşıl iqtisadiyyata keçid, dekarbonlaşma və alternativ enerji mənbələrindən istifadənin genişlənməsi yolu ilə "yaşıl artıma" nail olunması üçün ölkədə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi, iqtisadiyyatın şaxələndirilməsi, resurs gəlirlərindən asılılığın azaldılması istiqamətlərində işlərin davam etdirilməsi.

# 2022-Cİ İLDƏ BÜDCƏ BİZƏ NƏ VERƏCƏKDİR?

***Dövlət büdcəsinin prioritet xərc istiqamətləri Azərbaycan Respublikası Prezidentinin ölkəmizin 2030-cu ilədək sosial-iqtisadi inkişafına dair müəyyən etdiyi 5 Milli İnkişaf Prioritetləri ilə uzlaşdırılıb.***

İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışın təmin edilməsi, şəhər və kəndlərin bərpası və yenidən qurulması, həmin ərazilərdə müasir infrastrukturların yaradılması üçün **2,2 milyard manat ayrılacaq.**

Minimum əmək haqqının və pensiyaların, təqaüdlərin, sosial müavinətlərin, tələbələrin təqaüdlərinin, əmək haqlarının və digər sosial ödənişlərin məbləğlərinin artırılması nəzərdə tutulub. Bu məqsədlə büdcənin əməkhaqqı fondu **1 milyard 441,3 milyon manat artırılacaq.**

Növbəti tədris ili üçün dövlət sifarişi ilə təhsil alan tələbələrin sayının 2020-2021-ci tədris ili ilə müqayisədə **15 min 893 nəfər** və ya 16,7 faiz artırılaraq **110 min 834 nəfərə çatdırılması nəzərdə tutulur.** Bu məqsədlə dövlət büdcəsində dövlət sifarişi ilə ali təhsilin maliyyələşdirilməsi və təhsil sahəsində digər tədbirlər üzrə xərclər 24,1 faiz artırılaraq **397,3 milyon manata çatdırılıb.**

20 il və daha çox xidmət etmiş, işləyən və ehtiyyatda olan hərbi qulluqçuların mənzillə təmin olunması üçün **35 milyon manat** vəsait ayrılıb.

Əhalinin mənzilə olan təlabatının ödənilməsi və güzəştli şərtlərlə mənzil əldə edilməsinə dəstək məqsədi ilə ipoteka layihələrinin maliyyəşdirilməsi üçün ayrılan vəsaitin həcmi **24 milyon manat artırılaraq 95 milyon manata çatdırılacaq.**

Kirayəyə götürülmüş yaşayış sahəsinə görə yaşayış yeri olmayan hərbi qulluqçulara (ehtiyatda və istefada olan hərbi qulluqçular da nəzərə alınmaqla) ödənilən pul kompensasiyası üçün **98,5 milyon manat** vəsait xərclənəcək.

Əhalinin aztəminatlı təbəqəsinin ali təhsilə əlçatanlığını daha da artırmaq və ali təhsilin əhatə dairəsini genişləndirmək məqsədilə Tələbə Kredit Fondunun nizamnamə kapitalı 102,0 milyon manata çatdırılacaqdır. Bu məqsədlə 2022-ci ilin dövlət büdcəsindən **22 milyon manat ayrılacaq.**



Təhsil müəssisələrində informasiya kommunikasiya texnologiyalarının tətbiqi məqsədilə ümumi təhsil müəssisələri üçün **40 mindən çox kompüterin alınması** və yeni elektron sistemlərin yaradılması, həmçinin əlavə **50 məktəbdə mühafizə xidmətinin təşkili** nəzərdə tutulur

İkinci Qarabağ müharibəsində qələbə qazanılmasına mühüm töhfələr vermiş Vətən müharibəsi qəhrəmanlarının sosial müdafiəsi məqsədilə **2000 manat məbləğində Azərbaycan Respublikası Prezidentinin aylıq təqaüdü verilməyə başlanacaq.**

Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda həlak olmuş, itkin düşmüş hərbi qulluqçuların ailələri üçün müəyyən olunmuş Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləği 66,7 faiz artırılaraq **300 manatdan 500 manata** çatdırılır.

Birinci Qarabağ müharibəsi zamanı xəsarət almış, lakin sığorta məbləğini almamış hərbi qulluqçulara və onların varislərinə sığorta məbləğinin ödənilməsi üzrə qəbul olunmuş öhdəliklərin mərhələli şəkildə qarşılanması üçün **67 milyon manat vəsait nəzərdə tutulub**.

Xüsusi təhsilə cəlb olunan 12380 nəfərin valideynlərinə və ya digər qanuni nümayəndələrinə uşaqlarını xüsusi təhsil müəssisələrinə, sağlamlıq və reabilitasiya mərkəzlərinə və tibb müəssisələrinə aparıb gətirmək üçün **ödənilən aylıq müavinətin məbləği 22 manatdan 50 manata çatdırılacaq.**

20 min nəfərədək gənc mütəxəssisin kənd rayonlarındakı ümumi təhsil müəssisələrinə işə cəlb olunmalarının stimullaşdırılması məqsədi ilə onların kommunal xidmətləri və yaşayış yerinin kirayə haqqı üzrə verilən kompensasiyanın məbləğinin **60 manatdan 90 manata artırılacağı təmin olunacaqdır.**

Səhiyyə sahəsi üzrə sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi, o cümlədən COVID-19 pandemiyası ilə əlaqədar təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi üçün **350 milyon manat vəsait nəzərdə tutulub.**

2022-ci ildə şəkərli diabet xəstəliyinin müalicəsinə **48 milyon manat**, xərçəng xəstəliyi ilə mübarizəyə **45,5 milyon manat**, xroniki böyrək çatışmazlığı xəstəliyi ilə mübarizəyə **38,8 milyon manat**, talassemiya ilə mübarizəyə **22,6 milyon manat**, hemofiliya xəstəliyi üzrə mübarəzəyə **12,8 milyon manat**, qanın bədxassəli xəstəlikləri ilə mübarizəyə **6,9 milyon manat**, yoluxucu xəstəliklərin immunoprofilaktikasına **6,8 milyon manat**, İİV/QİÇS-in qarşısının alınması və onunla mübarizəyə **6 milyon manat**, uşaqların icbari dispanse-rizasiyasına **4,7 milyon manat**, digər səhiyyə tədbirlərinə **15,6 milyon manat** ayrılacaq.



# DÖVLƏT BÜDCƏSİNİN GƏLİRLƏRİ

Beynəlxalq maliyyə qurumlarının 2022-ci ildə dünya üzrə iqtisadi artım proqnozlarına rəğmən koronavirus pandemiyasının təsirinin 2022-ci ildə də hiss ediləcəyi gözlənilir. Bu baxımdan 2022-ci il üzrə dövlət büdcəsi gəlirlərinin proqnozları dünya iqtisadiyyatında gözlənilən meyillər nəzərə alınmaqla tərtib edilib.

**2022-ci il dövlət büdcəsinin gəlirləri 26 milyard 816 milyon manat nəzərdə tutulur ki, bu da ÜDM-in 31 faizi həcmində olmaqla, 2021-ci ilin proqnozu ilə müqayisədə 1,4 milyard manat çoxdur.**

2022-ci ildə dövlət büdcəsi gəlirlərinin **12 milyard 710 milyon manatı** Dövlət Neft Fondundan transfert, **8 milyard 820 milyon manatı** Dövlət Vergi Xidmətinin xətti ilə daxilolmalar, **4 milyard 260 milyon manatı** Dövlət Gömrük Komitəsinin xətti ilə daxilolmalar, **760 milyon manatı** büdcə təşkilatlarının büdcədənkənar daxilolmaları, **266 milyon manatı** isə sair gəlirləri hesabına formalaşacaq.




Dövlət Neft Fondundan transfertlər nəzərə alınmadan dövlət büdcəsinin gəlirləri **14 milyard 106 milyon manat** proqnozlaşdırılıb. Bu, 2021-ci ilin təsdiq edilmiş büdcə gəlirlərinə nisbətən **879 milyon manat** çoxdur.

# Büdcə gəlirlərinin strukturu

Büdcə gəlirlərinin **14 milyard 690 milyon manatı** neft sektorunun, **12 milyard 126 milyon manatı** qeyri-neft sektorunun payına düşür.




2021-ci ilin proqnozu ilə müqayisədə neft sektorunun gəlirləri **914 milyon manat** və ya 6,6 faiz, qeyri-neft sektorunun gəlirləri isə **475 milyon manat** və ya 4,1 faiz çoxdur.

2021-ci ilin dövlət büdcəsinin qeyri-neft sektoru üzrə gəlirlərində Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondundan nəzərdə tutulan **880 milyon manat** və Mərkəzi Bankın mənfəətindən **250 milyon manat** nəzərə alınmadan 2022-ci ilin dövlət büdcəsinin qeyri-neft sektoru üzrə gəlirləri 2021-ci ilin proqnozu ilə müqayisədə **1,6 milyard manat** və ya 15,3 faiz çoxdur.

## Neft sektoru üzrə dövlət büdcəsinin gəlirlərinin quruluşu

Dövlət büdcəsinin neft sektoru üzrə gəlirləri Dövlət Neft Fondundan transfert və vergi orqanlarının xətti ilə daxilolmalar hesabına formalaşır. Bu vəsaitin **12 milyard 710 milyon manatı** Dövlət Neft Fondundan transfertin, **1 milyard 980 milyon manatı** vergi orqanlarının xətti ilə daxilolmaların payına düşür.




Vergi orqanlarının xətti ilə neft sektoru üzrə daxilolmaların **68,2 faizi** Dövlət Neft Şirkətinin, **31,8 faizi** Hasilatın Pay Bölgüsü sazişləri üzrə şirkətlərin payına düşəcək. Belə ki, Dövlət Neft Şirkətinin ödənişləri **1 milyard 350 milyon manat**, Hasilatın Pay Bölgüsü sazişləri üzrə şirkətlərin mənfəət vergisi **630 milyon manat** nəzərdə tutulur.

2022-ci ilin dövlət büdcəsinin qeyri-neft gəlirlərinin həcmi **12 milyard 126 milyon manat** proqnozlaşdırılıb.

## Qeyri-neft sektoru üzrə gəlirlərin bölgüsü




Qeyri-neft sektoru üzrə gəlirlərin **6 milyard 840 milyon manatı** vergi orqanlarının xətti ilə daxilolmaların, **4 milyard 260 milyon manatı** gömrük orqanlarının xətti ilə daxilolmaların və **1 milyard 26 milyon manatı** digər gəlirlərin payına düşür.

## Dövlət Vergi Xidmətinin xətti üzrə daxilolmalar



**Dövlət Vergi Xidmətinin xətti ilə ayrı-ayrı gəlir növləri üzrə daxilolmalar aşağıdakı kimi proqnozlaşdırılır:**

- Fiziki şəxslərin gəlir vergisi üzrə daxilolmalar **1 milyard 485 milyon manat**
- Hüquqi şəxslərin mənfəət vergisi üzrə daxilolmalar **2 milyard 670 milyon manat**
- Əlavə dəyər vergisi (ƏDV) üzrə daxilolmalar **2 milyard 368,7 milyon manat**
- Sadələşdirilmiş vergi üzrə daxilolmalar **200 milyon manat**
- Aksizlər üzrə daxilolmalar **1 milyard 107 milyon manat**
- Hüquqi şəxslərin əmlak vergisi üzrə daxilolmalar **236 milyon manat**
- Dövlət rüsumu üzrə daxilolmalar **363,5 milyon manat**
- Hüquqi şəxslərin torpaq vergisi üzrə daxilomalar **46 milyon manat**
- Mədən vergisi üzrə daxilolmalar **142 milyon manat**
- Yol vergisi üzrə daxilolmalar **76,5 milyon manat**
- Azərbaycanda istehsal edilən və qiymətləri tənzimlənən məhsulların satış qiyməti ilə ölkədaxili topdansatış qiymət arasındakı fərqdən yığımlar **95,4 milyon manat**
- Dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən daxilolmalar **9 milyon manat**
- Cərimə və sanksiyalardan daxil olmalar **21 milyon manat**

## Dövlət Gömrük Komitəsi üzrə daxilolmaların bölgüsü




Dövlət Gömrük Komitəsi üzrə daxilolmaların **2 milyard 910 milyon manatı** idxal olunan mallarla bağlı əlavə dəyər vergisi, **160 milyon manatı** idxal olunan mallarla bağlı aksizlər, **1 milyard 150 milyon manatı** gömrük rüsumları və **40 milyon manatı** yol vergisi hesabına formalaşacaq.

## Digər gəlirlər üzrə daxilolmalar




2022-ci ilin dövlət büdcəsində digər gəlirlər üzrə daxilolmalar aşağıdakı mənbələr üzrə formalaşacaq:

- İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən dövlət büdcəsinə dövlət mülkiyyətində olan əmlakın icarəyə verilməsindən icarə haqqı **16 milyon manat**
- Büdcə təşkilatlarının ödənişli xidmətlərindən **760 milyon manat**
- Sair daxilolmalar **250 milyon manat**



# DÖVLƏT BÜDCƏSİNİN XƏRCLƏRİ

**2022**-ci il dövlət büdcəsinin xərcləri **29 milyard 879 milyon manat** (ÜDM-də xüsusi çəkisi 34,5 faiz) proqnozlaşdırılır ki, bu da 2021-ci ilə nisbətən **1 milyard 336 milyon manat** və ya 4,7 faiz çoxdur.



**Dövlət büdcəsinin xərcləri aşağıdakı 3 istiqamətdə qruplaşdırılıb:**

1. Cari xərclərin məbləği - **20 milyard 50,9 milyon manat**

*Cari xərclər hər il təkrarlanan xərclərdir. Misal üçün: əmək haqqı xərcləri və əmək haqqının ödənilməsi ilə bağlı hesablanan ayırmalar, pensiya və başqa sosial müavinətlər və ödənişlər, təşkilatın fəaliyyətin təmin edilməsi üçün kommunal xidmət xərclərinin ödənilməsi, malların satın alınması və digər xərclər.*

2. Əsaslı xərclər **8 milyard 36,1 milyon manat**

*a) Dövlət əsaslı vəsait qoyuluşu – **2 milyard 789,8 milyon manat***

*b) İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası ilə bağlı xərclər – **2 milyard 200 milyon manat***

*c) Xüsusi müdafiə təyinatlı layihələrin, digər büdcə təşkilatlarının müxtəlif alışları və digər zəruri tədbirlərin maliyyələşdirilməsi – **3 milyard 46.3 milyon manat***

3. Dövlət borcuna xidmətlə bağlı xərclər **1 milyard 792 milyon manat** təşkil edir.



**Büdcədə cari xərclərin böyük bir hissəsini sosialyönümlü xərclər təşkil edir.** 2022-ci il üçün dövlət büdcəsinin sosialyönlü xərcləri **13 milyard 928,3 milyon manat** məbləğində proqnozlaşdırılıb. Bu, 2021-ci illə müqayisədə **1 milyard 726,8 milyon manat** və ya 14,2 faiz çoxdur.

Sosialyönümlü xərclərə əməyin ödənişi, pensiya və müavinətlər, dərman, sarğı ləvazimatları və materiallarının, ərzaq məhsullarının alınması daxildir.



**2022-ci ildə sosialyönümlü xərclərin dövlət büdcəsinin cari xərclərinin tərkibində payı 2021-ci illə müqayisədə artaraq 67,7 faizdən 69,5 faizə çatacaq.**

## Büdcə xərclərinin ümumi iqtisadi təsnifatı

**Büdcə xərclərinin iqtisadi təsnifatı aşağıdakı xərc istiqamətlərini əhatə edir:**

- Əməyin ödənişi – **8 milyard 59,4 milyon manat**
- Sosial ödənişlər (Təqaüdlər və sosial müavinətlər) – **3 milyard 750,7 milyon manat**
- Faizlər üzrə ödənişlər – **632,3 milyon manat**
- Malların (işlərin və xidmətlərin) satın alınması – **6 milyard 317,7 milyon manat**
- Qrantlar və digər ödənişlər – **455,3 milyon manat**
- Subsidiyaların ödənilməsi – **1 milyard 451,6 milyon manat**
- Qeyri-maliyyə aktivlərinin alınması – **8 milyard 36,1 milyon manat**
- Öhdəliklər üzrə əməliyyatlar – **1 milyard 167,7 milyon manat**
- Maliyyə aktivləri üzrə əməliyyatlar **– 8,2 milyon manat**



“Dövlət sirri haqqında” Qanunundan irəli gələn tələblərə uyğun olaraq iqtisadi təsnifatın “Sair xərclər” maddəsində nəzərə tutulmuş bəzi xərclər istisna olmaqla, 2022-ci il üçün dövlət büdcəsində 2021-ci illə müqayisədə həmin xərc maddəsi üzrə **262,8 milyon manat** və ya 17,9 faiz azalma olacaqdır.

2022-ci ilin dövlət büdcəsində **ümumi dövlət xidmətləri** üzrə xərclərin məbləği **4 milyard 265,5 milyon manat** təşkil edir. Həmin vəsaitin **1 milyard 221,2 milyon manatı** əməyin ödənişi xərcləri, **8,1 milyon manatı** sosial ödənişlər, digər vəsaitlər isə sair xərclərdir.

## Büdcə xərclərinin funksiyalar üzrə əsas istiqamətləri

2022-ci il dövlət büdcəsində elm, təhsil, səhiyyə, sosial müdafiə və sosial təminat, mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət xərcləri üçün **9 milyard 978,8 milyon manat** vəsait nəzərdə tutulub. Bu, 2021-ci illə müqayisədə **736,9 milyon manat** və ya 8 faiz çoxdur.

Qeyd edilən həmin sahələr üzrə xərclərin büdcədə çəkisi 33,4 faiz təşkil edir.








# TƏHSİL XƏRCLƏRİ

Təhsil sektoruna dövlət büdcəsindən **3 milyard 884,3 milyon manat** vəsait ayrılıb. Bu, 2021-ci ilə nisbətən **606,7 milyon manat** çoxdur. Təhsil xərclərinin dövlət büdcəsində xüsusi çəkisi 13 faiz təşkil edir.

**Bu sahə üzrə xərclərin bölgüsü aşağıdakı kimidir:**




- ümumi təhsil xərcləri – **2 milyard 89,9 milyon manat**
- təhsil sahəsində digər müəssisələrin və tədbirlərin (*dövlət sifarişi ilə ali təhsilin maliyyələşdirilməsi ilə bağlı xərclər, bir sıra dövlət proqramları və tədbirlər*) maliyyə təminatı – **1 milyard 190,8 milyon manat**
- məktəbəqədər təhsil xərcləri **376,9 milyon manat**
- orta ixtisas təhsili xərcləri **87,3 milyon manat**
- ali təhsil – **60 milyon manat**
- peşə təhsili – **63,8 milyon manat**
- əlavə təhsil **8,7 milyon manat**
- təhsil sahəsində tətbiqi tədqiqatların maliyyələşdirilmə – **7 milyon manat**

Təhsildə əməyin ödənişi xərcləri **2 milyard 706,6 milyon manat**, sosial ödənişlər **214,9 milyon manat,** digər xərclər **962,8 milyon manata** bərabərdir.



Respublikanın ümumtəhsil məktəbləri şagirdlərinin pulsuz dərsliklərlə təmin olunması və metodiki vəsaitlərin alınmasına ayrılan vəsaitlər **2,2 milyon manat** artırılaraq **20,5 milyon manata** çatdırılacaq. Bu məqsədlə 2022/2023-cü tədris ilinə I-XI sinifləri üçün 300-dən çox adda təqribən **8 milyon** nüsxə müvafiq olaraq dərslik və müəllimlər üçün metodik vəsaitlərin çap edilməsi planlaşdırılır.

- Dövlət İmtahan Mərkəzi tərəfindən ümumi təhsil pilləsində təhsilalanların yekun qiymətləndirilməsinin aparılması, orta ixtisas təhsil müəssisələrinə və ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsinə tələbə qəbulu ilə bağlı keçirilən imtahanlarda abiturentlərin ilk dəfə iştirakı üçün həyata keçiriləcək işlərin maliyyələşdirilməsinə **10,4 milyon manat** məbləğində vəsait proqnozlaşdırılıb.

- 2022-ci ilin dövlət büdcəsində dövlət sifarişi ilə ali təhsilin maliyyələşdirilməsi və təhsil sahəsində digər tədbirlər üçün **397,3 milyon manat** vəsait proqnozlaşdırılıb ki, bu da 2021-ci illə müqayisədə **77,1 milyon manat** və ya 24,1 faiz çoxdur. Həmin vəsaitin **250,8 milyon manatını** təhsil xərcləri, **138,4 milyon manatını** isə təqaüd xərcləri təşkil edir. Həmin vəsaitin **8,1 milyon manatı** isə təhsil sahəsində digər tədbirlərə yönəldilməsi nəzərdə tutulmuşdur. Ümumilikdə növbəti tədris ili üçün dövlət sifarişi ilə təhsil alan tələbələrin sayının 2020-2021-ci tədris ili ilə müqayisədə 15893 nəfər və ya 16,7 faiz artaraq 110834 nəfərə çatdırılması, təqaüd alan tələbələrin sayı isə 12008 nəfər artması proqnozlaşdırılıb.

- 2022-ci ilin büdcə layihəsində orta ixtisas və peşə təhsil müəssisələrində təhsil alan tələbələrə verilən təqaüdlər xərci üzrə **34,6 milyon manat** vəsait nəzərdə tutulub ki, bu da cari ilin göstəricisi ilə müqayisədə **9,8 milyon manat** çoxdur. 2021/2022-ci tədris ilindən peşə təhsili müəssisələrinə dövlət hesabına tələbə qəbulu sayının 1880 nəfər artırılması və həmin müəssisələrdə təqaüdlərin tələbələrin müvəffəqiyyət göstəricilərindən asılı olaraq yeni qaydada ödənilməsi nəzərdə tutulur.



# ELM XƏRCLƏRİ

***Büdcədə elm xərcləri 202,8 milyon manat təşkil edir.***




**Bu sahə üzrə xərclərin bölgüsü aşağıdakı kimidir:**

- Azərbaycan Milli Elmlər Akademiyası və tabeliyində olan 46 elmi tədqiqat müəssisələri və təşkilatları – **133,9 milyon manat**
- Azərbaycan Respublikası Prezidentinin yanında Elmin İnkişaf Fondu – **4,2 milyon manat**
- Azərbaycan Respublikasının dövlət arxivlərinin və onların filiallarının, rayon (şəhər) dövlət arxivlərinin saxlanılması və "Azərbaycan Respublikasında arxiv işinin inkişafına dair 2020-2025-ci illər üçün Dövlət Proqramı"nın maliyyə təminatı üçün - **9,8 milyon manat**
- "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzinin saxlanılması, Mərkəz tərəfindən Azərbaycan Milli Ensiklopediyasının hazırlanması və nəşr olunması – **2,9 milyon manat**
- Digər xərclər – **52 milyon manat**



# SƏHİYYƏ XƏRCLƏRİ

2022-ci ilin dövlət büdcəsində səhiyyə xərcləri **1 milyard 788,6 milyon manat** nəzərdə tutulmuşdur ki, bu da 2021-ci ilə nisbətən **118,6 milyon manat** və ya 7,1 faiz çoxdur.

Səhiyyə xərcləri üçün ayrılmış vəsaitin **1 milyard 125,7 milyon manatı** dövlət tərəfindən hər bir vətəndaşın sığorta haqqının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə ödənilməsinə və şəkərli diabet, xroniki böyrək çatışmazlığı, talassemiya və digər xəstəliklərlə mübarizə üzrə dövlət proqramlarının maliyyələşdirilməsinə sərf olunacaq. Bu məbləğ səhiyyə xərclərinin **62,9 faizini** təşkil edəcəkdir. İcbari tibbi sığortanın tətbiqinə yönəldiləcək vəsaitin məbləği 2021-ci ilin təsdiq olunmuş göstəricisi ilə müqayisədə **80,9 milyon manat** və ya **7,7 faiz** çoxdur. İcbari tibbi sığorta çərçivəsində hər bir vətəndaşın ilkin səhiyyə xidmətlərinə, təcili və təxirəsalınmaz tibbi yardıma və icbari tibbi sığorta üzrə Xidmətlər Zərfinə daxil olan digər tibbi xidmətlərə əlçatanlığı təmin olunur.

**Bu sahə üzrə xərclərin bölgüsü aşağıdakı kimidir:**




- İcbari tibbi sığorta xərcləri – **1 milyard 125,7 milyon manat**
- Koronovirus pandemiyası ilə mübarizə xərcləri – **350 milyon manat**
- Poliklinika və ambulatoriyaların saxlanılması – **1,7 milyon manat**
- Xəstəxanaların saxlanılması – **171,1 milyon manat**
- Səhiyyə sahəsində tətbiqi tədqiqatlar – **2,6 milyon manat**
- Səhiyyə sahəsində proqramlar və digər xidmətlərin maliyyələşdirilməsi – **137,5 milyon manat**

Ölkədə davam edən, **insanların sağlamlığı üçün təhlükəli olan koronavirus (COVID-19) pandemiyasından əhalinin sağlamlığının qorunması və səhiyyə sahəsində digər tədbirlərə** 2022-ci ilin dövlət büdcəsində **350 milyon manat** vəsait nəzərdə tutulub. Bu vəsait əsas hissəsi 2021-ci ildə qəbul olunmuş “Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası”na müvafiq olaraq əhalinin sosial və tibbi cəhətdən yüksək risk qruplarının maksimal dərəcədə vaksinasiya ilə əhatə olunması məqsədilə vaksinlərin, habelə testlərin (reagentlərin), dərman, tibbi ləvazimatlarının, avadanlıqların və digər malların alınmasına və tibbi xidmətlərin göstərilməsinə, həmçinin yüksək risk qrupuna daxil olan dövlət, eləcə də özəl və təsərrüfathesablı tibb müəssisələrində çalışaraq mübarizə tədbirlərində iştirak edən işçilərin əməkhaqlarına aylıq vəzifə (tarif) maaşlarına müəyyən edilmiş (3–5 misli miqdarında) müddətli əlavələrin ödənilməsinə yönəldiləcəkdir.







Pandemiya şəraitində əhalinin sağlamlığının qorunması, sanitar-epidemioloji vəziyyətə nəzarətin təmin edilməsi, infeksiyaya yoluxmuş və onlarla təmasda olan şəxslərin monitorinqinin aparılması, psixi pozuntu vəziyyətində olan şəxslərə tibbi və sosial yardımın göstərilməsi, narkoloji xəstəliklərin və onların doğurduğu mənfi tibbi və sosial nəticələrin, habelə bu xəstəliklərə düçar olmuş və onların ətrafında olan şəxslərə ziyanın vurulması hallarının qarşısının alınması məqsədilə *sanitar-epidemioloji xidmətlərin, psixiatriya yardımı, narkoloji xidmət və nəzarət sahəsində həyata keçirilən tədbirlərin* maliyyələşdirilməsi üçün Səhiyyə Nazirliyinə 2022-ci ilin

dövlət büdcəsində **165,8 milyon manat** vəsait nəzərdə tutulub. Bu vəsaitin **65,7 milyon manatı** yoluxucu xəstəliklərin immunoprofilaktikası, İİV/QİÇS-lə mübarizə və digər dövlət proqramlarının və məqsədli tədbirlərin maliyyələşdirilməsinə yönəldiləcək. Həmin vəsait xəstələrə göstərilən tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsinə, xəstələrin dərman preparatları və digər ləvazimatlarla tam təminatının yaxşılaşdırılmasına, xəstəliklərin profilaktikasına və müalicəsinə dair əhalinin maarifləndirilməsinə yönəldiləcəkdir.




Ölkədə onkoloji xəstəliyə düçar olmuş şəxslərin həyat tərzinin yaxşılaşdırılması və ömürlərinin uzadılması məqsədilə onların dispanserizasiyası aparılmaqla *registrinin yaradılması, onkoloji xəstəliyə düçar olmuş şəxslərin dərman preparatlarına olan tələbatının ödənilməsi, müayinə, müalicə və reabilitasiyasının həyata keçirilməsi üçün* Milli Onkologiya Mərkəzinə 2022-ci ilin dövlət büdcəsində **46,8 milyon manat** vəsait nəzərdə tutulub.

Ölkədə əhaliyə **oftalmoloji yardımın,** dəmir yolu xətlərində sərnişinlərə həkim-sanitar xidmətinin təşkili, əhalinin həyat fəaliyyətinin təhlükəsizliyini və ictimai asayişi təmin edən **polis və gömrük əməkdaşlarına,** ölkəmizin şərəfini dünya, Avropa, olimpiya və digər beynəlxalq idman yarışlarında təmsil edən **idmançılara,** habelə **penitensiar müəssisələrdə saxlanılan** və digər şəxslərə tibbi xidmətlərin təşkili üçün ayrı-ayrı xüsusi tibb müəssisələrinə 2022-ci ilin dövlət büdcəsində **100,3 milyon manat** vəsait nəzərdə tutulub.

2022-ci ilin dövlət büdcəsində səhiyyə sahəsində dövlət proqramlarının və həyata keçiriləcək tədbirlərin maliyyələşdirilməsi üçün **207,7 milyon manat** vəsait proqnozlaşdırılıb.

Səhiyyədə əməyin ödənişi xərcləri **151,9 milyon manata**, sosial ödənişlər **1,2 milyon manata** bərabərdir.

Səhiyyə subsidiyalarının məbləği isə **16,9 milyon manat** təşkil edir.



# SOSİAL MÜDAFİƏ VƏ SOSİAL TƏMİNAT XƏRCLƏRİ

2022-ci ilin dövlət büdcəsində sosial müdafiə və sosial təminat xərcləri üçün **3 milyard 642,6 milyon manat** vəsait proqnozlaşdırılıb. Sosial müdafiə və sosial təminat xərclərinin büdcədə çəkisi 12,2 faiz təşkil edir.






2022-ci ildə Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsindən ayırmalar **1 milyard 146 milyon manat** nəzərdə tutulub. Bu vəsait hesabına **1,3 milyon nəfərə** yaxın əmək pensiyaçısının pensiyalarının bir hissəsinin maliyyələşdirilməsi həyata keçiriləcəkdir.

Əhalinin gəlir əldə etmək imkanlarının və rifahının yaxşılaşması, yoxsulluq səviyyəsinin azaldılması, aztəminatlı ailələrin, xüsusilə də sosial cəhətdən həssas qrupların sosial müdafiəsinin gücləndirilməsi və digər sosial tədbirlərin maliyyə təminatı üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə 2022-ci ilin dövlət büdcəsindən **1 milyard 916,7 milyon manat** vəsait ayrılması proqnozlaşdırılıb. Həmin vəsaitin **815,1 milyon manatı** sosial müavinətlərin maliyyələşdirilməsinə, **468,9 milyon manatı** Azərbaycan Respublikası Prezidenti tərəfindən təsis olunmuş təqaüdlərin maliyyələşdirilməsinə, **277,7 milyon manatı** ünvanlı dövlət sosial yardımının ödənilməsinə, **83 milyon manatı** digər sosial ödənişlərin maliyyələşdirilməsinə yönəldiləcək.



2022-ci ilin dövlət büdcəsində sosial müdafiə və sosial təminat sahəsində "*Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2020–2025-ci illər üçün Tədbirlər Planı*"nın icrası olaraq işsiz şəxslərin məşğulluq imkanlarının genişləndirilməsi məqsədilə haqqı ödənilən ictimai işlərin əhatə dairəsinin genişləndirilməsi, təşkili mexanizminin təkmilləşdirilməsi və səmərəliliyinin artırılması ilə bağlı xərclərin maliyyə təminatı üçün **272 milyon manat** vəsait proqnozlaşdırılıb.

Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların ilk dəfə əmək fəaliyyətinə başlamaları ilə bağlı qanunvericilikdə nəzərdə tutulmuş normativlər üzrə paltar, ayaqqabı, yumşaq inventar və avadanlıqla təmin edilməsi, habelə ölkə üzrə orta aylıq əməkhaqqının beş mislindən az olmayan məbləğdə birdəfəlik müavinətin ödənilməsi üçün dövlət büdcəsinin xərclərində **2,3 milyon manat** vəsait nəzərdə tutulub.



Birinci Qarabağ müharibəsi zamanı xəsarət almış, lakin sığorta məbləğini almamış hərbi qulluqçulara sığorta məbləğinin ödənilməsi üzrə qəbul olunmuş öhdəliklərin mərhələli şəkildə qarşılanması üçün 2022-ci ilin dövlət büdcəsinin xərclərində **67 milyon manat** vəsait nəzərdə tutulub.

2022-ci ilin dövlət büdcəsində Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsinə **367,3 milyon manat** vəsait proqnozlaşdırılıb. Bu vəsaitin **334,1 milyon manatı** 500 min nəfərə yaxın məcburi köçkün statusu olan və onlara bərabər tutulan şəxslərə ayda 60 manat məbləğində aylıq müavinətin verilməsinə yönəldiləcək. Bundan başqa məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər tərəfindən istehlak edilən kommunal xidmətlərin haqqının dövlət büdcəsinin vəsaiti hesabına qarşılanması üçün **22,3 milyon manat** və həmin kateqoriyadan olan şəxslərin sosial müdafiəsinin yaxşılaşdırılması üçün digər tədbirlərə **10,9 milyon manat** vəsaitin ayrılması nəzərdə tutulub.



Məişət zorakılığına, insan alverinə, erkən nikaha məruz qalmış şəxslər, sağlamlıq imkanları məhdud olan uşaqlar və onların ailə üzvləri ilə sosial, psixoloji işin təşkili və bu qəbildən olan digər tədbirlərin maliyyə təminatı üçün 2022-ci ilin dövlət büdcəsindən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə **2,3 milyon manat** vəsait ayrılacaq. Həmin vəsait hesabına Komitənin tabeliyində olan və 11 rayonda fəaliyyət göstərən *Uşaq və ailələrə dəstək mərkəzləri* tərəfindən qadınlara və uşaqlara yönəldilmiş psixoloji dəstəyin verilməsi, hüquqi məlumatlandırma və zəruri hallarda məsləhətlərin, sosial-psixoloji reabilitasiyanın təşkil edilməsi, fərdi, qrup və ailə terapiyasının həyata keçirilməsi, loqoped xidmətlərinin göstərilməsi, məişət zorakılığı hallarının qarşısının alınması, ailələrin psixo-sosial vəziyyətinin qiymətləndirilməsi, valideyn və uşaq bacarıqlarının inkişaf etdirilməsi, fərdi və qrup inkişafetdirici məşğələlərin, uşaqların asudə vaxtlarının təşkili və digər istiqamətlər üzrə tədbirlərin maliyyə təminatı həyata keçiriləcəkdir.



Eyni zamanda həssas əhali qruplarından olan şəxslərə sosial xidmətlərin göstərilməsinə **56,1 milyon manat**, Vətən müharibəsi iştirakçılarının yüksək texnologiyalı yeni nəsil protezlərin hazırlanmasına, tibbi-sosial ekspertiza və reabilitasiya xidmətlərinin göstərilməsinə **47,1 milyon manat**, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsinin yaxşılaşdırılması və onların dövlət qayğısı ilə təmin olunması məqsədilə uşaq evlərinin saxlanılmasına **3 milyon manat** olmaqla bu tədbirlərin maliyyələşdirilməsinə ümumilikdə **106,2 milyon manat** vəsait proqnozlaşdırılıb.



# MƏDƏNİYYƏT, İNCƏSƏNƏT, İNFORMASİYA, BƏDƏN TƏRBİYƏSİ, GƏNCLƏR SİYASƏTİ

2022-ci il üçün mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət sahələrinin maliyyələşdirilməsinə büdcədən **460,5 milyon manat** vəsait ayrılması proqnozlaşdırlıb ki, buda 2021-ci illə müqayisədə **42,3 milyon manat** və ya 10,1 faiz çoxdur.




**Bu sahə üzrə xərclərin bölgüsü aşağıdakı kimidir:**

- Mədəniyyət və incəsənət sahəsində fəaliyyət (kitabxanalar, muzeylər, qoruqlar, mədəniyyət sarayları, evləri, mərkəzləri, teatrlar, musiqi kollektivlərinin saxlanılmasının maliyyə təminatına) sahələri – **205,4 milyon manat**
- Televiziya, radio və nəşriyyat xərcləri – **54,2 milyon manat**
- Bədən tərbiyəsi və gənclər siyasəti tədbirləri – **43,9 milyon manat**
- Bu sahələrdə digər müəssisə və tədbirlərlə bağlı xərclərin maliyyələşdirilməsi – **157 milyon manat**





Xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, digər xalqların diasporları ilə əlaqələr və lobbi quruculuğu ilə bağlı tədbirlərin maliyyələşdirilməsi üçün **6,3 milyon manat** vəsait nəzərdə tutulub.

2022-ci il dövlət büdcəsindən mədəniyyət, tarixi, sosial-iqtisadi inkişafı, elmi-texniki və turizm potensialı barədə təbliğat işinə və Mədəniyyət Mərkəzlərinin saxlanılmasına **6,8 milyon manat** vəsait yönəldiləcəkdir.

Azərbaycanda qeyri-hökumət təşkilatlarının gücləndirilməsi, onlar tərəfindən irəli sürülən təşəbbüslərin, proqram və layihələrin maliyyəşdirilməsi məqsədi ilə “Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi” publik hüquqi şəxsə **6,8 milyon manat** məbləğində vəsait ayrılacaq.

Kütləvi informasiya vasitələrinin, o cümlədən “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin, İctimai Televiziya və Radio Yayımları Şirkətinin, “Mir” Dövlətlərarası Teleradio Şirkəti Azərbaycan Milli Nümayəndəliyinin fəaliyyətinin təmin olunması məqsədilə 2022-ci ilin dövlət büdcəsində **51,9 milyon manat** vəsait nəzərdə tutulub.



Gənclərin idmana həvəsinin artırılması, olimpiya idman komplekslərinin və idman qurğularının xərclərinin bir hissəsinin qarşılanması üçün **9,2 milyon manat**, respublika və beynəlxalq səviyyəli idman tədbirlərinin və yarışların keçirilməsi, təlim-məşq toplantıları və digər tədbirlər üçün **18,6 milyon manat** vəsait ayrılıb.



Ölkədə fəaliyyət göstərən siyasi partiyaların fəaliyyəti üçün **5 milyon manat** vəsait ayrılıb.

Azərbaycanda KİV-in inkişaf etdirilməsi, jurnalistlərin peşəkarlığının artırılması, vətəndaş cəmiyyəti quruculuğunda mətbuatın rolunun gücləndirilməsi məqsədi ilə "Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxsə **5,7 milyon manat** ayrılacaq.

Dünyanın nüfuzlu televiziya kanallarında Azərbaycan mədəniyyətinin təbliği üçün **2 milyon manat** sərf olunacaq.



Azərbaycan kinosunun inkişafına **6,5 milyon manat**, teatrının inkişafı və tamaşaların hazırlanmasına isə **1,6 milyon manat** maliyyə dəstəyi göstəriləcək.



# Müdafiə və milli təhlükəsizlik, məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq orqanlarının saxlanılması

Müdafiə və milli təhlükəsizlik, məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq orqanlarının saxlanılması xərclərinin həcmi **6 milyard 922,5 milyon manata** bərabərdir.




**Bu sahələr üzrə xərclərin bölgüsü aşağıdakı kimidir:**

- *Müdafiə və milli təhlükəsizlik – **4 milyard 489,9 milyon manat***
- *Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq orqanlarının saxlanılması – **2 milyard 432,6 milyon manat***

*Yaşayış yeri olmayan hərbi qulluqçulara kirayəyə götürülmüş yaşayış sahəsinə görə ödəniş – **11,9 milyon manat***





# Kənd təsərrüfatı xərcləri

2022-ci ilin dövlət büdcəsində kənd təsərrüfatı bolməsi üzrə **997,3 milyon manat** vəsait ayrılması nəzərdə tutulub. Bu, 2021-ci illə müqayisədə **54,3 milyon manat** və ya 5,8 faiz çoxdur.




**Bu sahə üzrə xərclərin bölgüsü aşağıdakı kimidir:**

- kənd təsərrüfatı tədbirləri – **477,5 milyon manat**
- baytarlıq tədbirləri – **47,5 milyon manat**
- meliorasiya, irriqasiya və suvarma sistemlərinin maliyyə təminatı – **459,7 milyon manat**
- kənd təsərrüfatı üzrə digər müəssisə və tədbirləri – **12,6 milyon manat**

Azərbaycanın ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün **456 milyon manat** vəsait proqnozlaşdırılır.



Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə **459,7 milyon manat** vəsait yönəldiləcəkdir.

Kənd təsərrüfatı sahəsinə ayrılmış vəsaitin **505 milyon manatı** subsidiya şəklində veriləcək.





## Mənzil və kommunal təsərrüfatı xərcləri

2022-ci ilin dövlət büdcəsində mənzil və kommunal xərcləri üzrə **266,8 milyon manat** vəsait proqnozlaşdırılır. Bu, 2021-ci ildən müqayisədə **4 milyon manat** və ya 1,5 faiz çoxdur.

"Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyətinə **41,1 milyon manat**, lift təsərrüfatına **5,9 milyon manat** subsidiya proqnozlaşdırılıb.



Büdcədən Mənzil-kommunal təsərrüfatına **98,2 milyon manat** subsidiya nəzərdə tutulubdur.





## Ətraf mühitin mühafizəsi xərcləri

2022-ci il dövlət büdcəsində ətraf mühitin mühafizəsi xərcləri **286,3 milyon manata** bərabərdir. Bu, 2021-ci ildən müqayisədə **10,7 milyon manat** və ya 3,9 faiz çoxdur.

Şəhərlərin, rayon mərkəzlərinin, qəsəbə və başqa yaşayış məntəqələrinin abadlaşdırılması, tullantıların yığılması və təmizlənməsi ilə bağlı xərclər, eyni zamanda prospektlərin, küçələrin, meydanların, səkilərin abadlaşdırılması və təmiri və s. üçün **211,4 milyon manat**, "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətinə subsidiya formasında **33 milyon manat** vəsait ayrılması nəzərdə tutulub.



# İqtisadi fəaliyyət üzrə xərclər

2022-ci il dövlət büdcəsində iqtisadi fəaliyyətlə bağlı xərclərə *(dövlət əsaslı vəsait qoyuluşu və işğaldan azad olunmuş ərazilərin yenidənqurulması və bərpası ilə bağlı xərclər istisna olmaqla*) **957,4 milyon manat** vəsait nəzərdə tutulub. Bu, büdcə xərclərinin 3,2 faizi deməkdir.




**Bu sahə üzrə xərclərin bölgüsü aşağıdakı kimidir:**

- nəqliyyat və rabitə – **232,9 milyon manat**
- geodeziya və faydalı qazıntılar – **8,2 milyon manat**
- iqtisadi və kommersiya fəaliyyəti (*Dövlət Turizm Agentliyi)* – **56,1 milyon manat**
- yanacaq və enerji kompleksi – **1,9 milyon manat**
- iqtisadi fəaliyyətlə bağlı digər xidmətlərin maliyyə təminatı – **658,3 milyon manat**

**o cümlədən:**

*Azərbaycanın xarici ölkələrdə fəaliyyət göstərən ticarət nümayəndəliklərinin saxlanılmasına yönəldiləcək* – ***5,8 milyon manat***





## Əsas bölmələrə aid edilməyən xərclər

2022-ci il dövlət büdcəsində əsas bölmələrə aid edilməyən xərclərə **1 milyard 471,4 milyon manat** vəsait nəzərdə tutulub. Bu, büdcə xərclərinin 4,7 faizi deməkdir.

Büdcədə Prezidentin Ehtiyat Fondu üçün **518 milyon manat**, dövlət büdcəsinin Ehtiyat Fondu üçün **110 milyon manat** ayrılıb.



***Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondu xərclərinin məbləği dövlət büdcəsinin gəlirlərinin 2 faizindən, dövlət büdcəsinin ehtiyat fondunun xərclərinin məbləği isə 5 faizindən artıq olmamaqla proqnozlaşdırılıb.***

Ölkənin müxtəlif sahələrinin, o cümlədən sosial-iqtisadi sferanı əhatə edən 46 publik hüquqi şəxsə **333,4 milyon manat** vəsaitin dövlət sifarişi əsasında məqsədli xidmətlərin göstərilməsi ilə bağlı proqnozlaşdırılıb.

2022-ci ilin dövlət büdcəsində fövqəladə halların nəticələrinin aradan qaldırılması üçün **20 milyon manat**, yaşayış məntəqələri ilə bağlı zəruri tədbirlər üçün **10 milyon manat**, dövlət ehtiyatlarının (ərzaq, dərman, tibbi ləvazimatlar, avadanlıq və yanacaq ehtiyatı) yaradılması üçün **42,3 milyon manat** vəsait nəzərdə tutulub.

2022-ci ilin dövlət büdcəsində "Avtomobil Yolları" Məqsədli Büdcə Fondunun gəlirləri və xərcləri bərabər olmaqla **300 milyon manat** təşkil edəcəkdir.

Büdcədən bələdiyyələrə **5,3 milyon manat** dotasiya, **1,3 milyon manat** subvensiya ayrılması nəzərdə tutulub.

# ƏSASLI XƏRCLƏRİN İSTİQAMƏTLƏRİ

2022-ci il dövlət büdcəsində əsaslı xərclərin həcmi **8 milyard 36,1 milyon manat** nəzərdə tutulub. Bu, ümumi büdcə xərclərinin 26,9 faizi deməkdir. Əsaslı xərclər aşağıdakı istiqamətlərə yönəldiləcəkdir:




## İşğaldan azad olunmuş ərazilərin yenidənqurulması

İşğaldan azad olunmuş ərazilərə böyük qayıdışın təmin edilməsi üçün şəhər və kəndlərin bərpası və yenidən qurulması, həmin ərazilərdə müasir infrastrukturların yaradılması (elektrik enerjisi, təbii qaz, su, rabitə, yol, təhsil, səhiyyə, mədəniyyət, mənzil-kommunal və digər zəruri infrastrukturların və mədəni-tarixi abidələrin bərpası və yenidənqurulması, yaşayış evlərinin tikintisi və s.) məqsədi ilə 2022-ci ilin dövlət büdcəsindən **2,2 milyard manat** vəsaitin ayrılması nəzərdə tutulub.

## Dövlət investisiya proqramı

2022-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya) xərcləri üçün **2 milyard 789,8 milyon manat** vəsait nəzərdə tutulub.




Bu vəsait sosial və infrastruktur təyinatlı layihələrin (*sosial-mədəni və məişət, inzibati, istehsalat təyinatlı layihələrin, bina və qurğuların, yolların, meliorasiya və su təsərrüfatı obyektlərinin, içməli su təminatı və kanalizasiya sistemlərinin tikintisinə, yenidən qurulmasına, əsaslı təmirinə, qeyri-maliyyə aktivlərinin, o cümlədən əsas vəsaitlərin, tikililərin, yaşayış və qeyri-yaşayış binalarının və s. alınması*) maliyyələşməsinə yönəldiləcəkdir.

Həmin vəsaitin **593 milyon manatlıq** hissəsi beynəlxalq kreditor qurumlarının təqdim etdiyi kreditlər hesabına həyata keçirilən sosial və infrastruktur təyinatlı layihələrin *(“Avtomobil və dəmir yolları şəbəkəsinin yenidən qurulması və təkmilləşdirilməsi”, “Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu”, “Özünəməşğulluq proqramının genişləndirilməsi” və sair layihələr çərçivəsində istifadəsi gözlənilən kredi vəsaitləri)* maliyyələşdirilməsi üçün nəzərdə tutulur.

## Xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə xərclər

Ölkəmizin müdafiə potensialının gücləndirilməsi və Silahlı Qüvvələrin maddi-texniki təminatının daha da yaxşılaşdırılması məqsədilə dövlət büdcəsinin əsaslı xərclərindən bu sahəyə **1 milyard 600 milyon manat** vəsait nəzərdə tutulub.



## Digər əsaslı xərclər

Büdcə və qeyri-büdcə təşkilatları tərəfindən tikinti, bərpa, yenidənqurma, əsaslı təmir və digər məqsədlər üçün **1 milyard 446,3 milyon manat** vəsait proqnozlaşdırılıb.

**Bu sahə üzrə xərclərin bölgüsü aşağıdakı kimidir:**



Ölkə ərazisində ümumi istifadədə olan respublika və yerli əhəmiyyətli avtomobil yollarının və onlarla əlaqədar mühəndis qurğularının, təhkim zolaqlarının istifadəsi, saxlanılması və istismarı məqsədilə "Avtomobil Yolları" Məqsədli Büdcə Fonduna **300 milyon manat** məbləğində vəsait nəzərdə tutulub. Bu, 2021-ci illə müqayisədə **10 milyon manat** və ya 3,4 faiz çoxdur.



Digər əsaslı xərclər üçün nəzərdə tutulan vəsaitin **115 milyon manatı** kompüter avadanlıqlarının, proqram təminatının, modul tipli məktəblərin quraşdırılması və məktəblərdə sanitar qovşaqların əsaslı təmiri üçün Təhsil Nazirliyinə, **129,7 milyon manatı** dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərindən maliyyələşən təşkilatların büdcədənkənar xərclərinə sərf olunacaq.

Dövlətə məxsus qurumların nizamnamə kapitalının artırılmasına **309 milyon manat** ayrılır – **95 milyon manat** İpoteka və Kredit Zəmanət Fonduna, **214 milyon manat** isə Dövlət Neft Şirkətinə.

Əhalinin mənzilə olan tələbatının ödənilməsi və vətəndaşların güzəştli şərtlərlə mənzil əldə etməsi ilə bağlı İpoteka və Kredit Zəmanət Fonduna ayrılmaı nəzərdə tutulan vəsait **20 milyon manat** artırılaraq **100 milyon manata** çatdırılıb. Bu vəsaitin **95 milyon manatı** güzəştli ipoteka kreditlərinin, **5 milyon manatı** isə sahibkarlar tərəfindən milli valyutada alınan kreditlərə hesablanmış faizlərə görə subsidiya verilməsinə yönəldiləcək.



Dövlət Neft Şirkətinə ayrılılan vəsait isə Heydər Əliyev adına Neft Emalı Zavodunun modernləşdirilməsi ilə bağlıdır.

Yerdə qalan **592,6 milyon manat** isə digər büdcə təşkilatlarının müxtəlif alışları, əsaslı təmir, inventar və avadanlıqların alınması, dövlətin balansında olan yaşayış binaların və yolların əsaslı təmiri, kitabxanalar üçün kitabların və elektron kitabların alınmasına xərclənəcək.

# DÖVLƏT BORCU

Azərbaycan hökumətinin borcların idarə edilməsi ilə bağlı həyata keçirdiyi siyasətə uyğun olaraq son illərdə dövlət borcunun məbləği əhəmiyyətli dərəcədə azalmaqdadır.

**1 iyul 2021-ci il tarixinə Azərbaycanın birbaşa xarici dövlət borcunun məbləği 7 milyard 839 milyon ABŞ dollar, ümumi daxili məhsula nisbəti 16,6 faiz təşkil edib**.

Dövlət müəssisələri tərəfindən dövlət zəmanəti ilə alınmış xarici borc üzrə şərti öhdəlikləri **764,4 milyon ABŞ dollarına** bərabər olub.



**Beləliklə, ümumilikdə xarici dövlət borcunun məbləği:** ***8 milyard 603.4 milyon ABŞ dollarına və ya manat ifadəsilə 14 milyard 625,7 milyon AZN təşkil edir. Bu borcun ümumi daxili məhsula nisbəti 18,2 faiz edir.***

2021-ci ilin əvvəlinə isə şərti öhdəliklər daxil olmaqla Azərbaycanın xarici dövlət borcu **8 milyard 821,5 milyon dollara** bərabər idi. *(Dövlət borcu sayılan şərti öhdəliklər dövlət zəmanəti ilə kredit vəsaiti cəlb etmiş icraçı təşkilatların öz üzərinə düşən öhdəlikləri yerinə yetirməməsi riskindən asılı olaraq, dövlət zəmanətli borc öhdəliklərinə xidmət xərclərinin 1 maliyyə ilinə düşən hissəsidir.)*

2021-ci ilin birinci yarısında xarici dövlət borcumuz mütləq ifadədə **218,1 milyon ABŞ dolları** və ya 2,5 faiz azalıb.

1 iyul 2021-ci il tarixinə xarici dövlət borcunun **59,8 faizi** sabit, **40,2 faizi** dəyişkən faiz dərəcəsi ilə olan borclardır.




1 iyul 2021-ci il tarixinə **qaytarılma müddəti** 10 ilə qədər **45,1 faiz**, 10 ildən 20 ilə qədər **49,2 faiz**, 20 ildən yuxarı olan müddət **5,7 faiz təşkil edir.**



**1 iyul 2021-ci il tarixinə xarici dövlət borcunun valyuta strukturu:**



Xarici dövlət borclarının 82,9 faizi ABŞ dollarının, 8,6 faizi avronun, 3,3 faizi Yaponiya yenasının, 4,1 faizi BVF-nin Xüsusi Borclanma Hüququnun, 1,1 faizi isə digər valyutalarının payına düşür.

## Dövlət borclarına xidmətə nə qədər vəsait ayrılıb?

2022-ci il dövlət büdcəsində əsas borc və faizlər üzrə xərclər üçün **1 milyard 792 milyon manat** məbləğində vəsait nəzərdə tutulub.

Həmin xərclərə daxildir:

– **1 milyard 560 milyon manat**: *xarici dövlət borcuna xidmət xərcləri*

– **232 milyon manat**: *daxili dövlət borcuna xidmət xərcləri*

## 2022-ci ildə icazə verilən borclanma:

Azərbaycan Respublikasının 2022-ci il üzrə daxili dövlət borclanmasının yuxarı həddi **1 milyard 100 milyon manat**, xarici dövlət borclanmasının yuxarı həddi isə **600 milyon manat** nəzərdə tutulur. İl ərzində veriləcək dövlət zəmanətlərinin məbləğinin yuxarı həddi **800 milyon manat** məbləğində olacaq.



# Beynəlxalq fəaliyyət və xarici yardımlar üzrə xərclər

2022-ci ilin dövlət büdcəsində beynəlxalq münasibətlər və xarici yardımlar üzrə xərclər üçün **380,31 milyon manat** vəsait proqnozlaşdırılıb.




- Beynəlxalq və regional təşkilatlara üzvlük haqqı üzrə xərclər – **19 milyon manat**
- Beynəlxalq və regional maliyyə institutlarının səhm kapitalında iştirak üzrə xərclər – **8,2 milyon manat**
- Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəliklərinin və konsulluqlarının saxlanması üzrə xərclər – **125 milyon manat**
- Beynəlxalq fəaliyyət və bu qəbildən olan tədbirlər üzrə xərclər – **31,2 milyon manat**
- Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəliklərinin və konsulluqların fəaliyyəti ilə bağlı digər xərclər – **10 milyon manat**
- 2022-ci ildə ölkəmizdə beynəlxalq, ölkə səviyyəli və bu qəbildən olan digər tədbirlərin keçirilməsi üzrə xərclər – **170 milyon manat**
- Xarici yardımlar üzrə xərclər – **11 milyon manat**
- Xarici qrantlar hesabına həyata keçirilən layihələr – **110 min manat**
- Xaricdəki ticarət nümayəndəliklərinin saxlanılması üzrə xərclər – **5,8 milyon manat**



# BÜDCƏNİN YERLİ GƏLİR VƏ XƏRCLƏRİ

2022-ci il dövlət büdcəsinin yerli gəlirləri **947,6 milyon manata**, yerli xərcləri isə **985 milyon manata** bərabərdir. Yerli xərcləri tənzimləmək üçün büdcənin mərkəzləşdirilmiş xərclərinin 3,8 faiz həcmində dotasiya ayrılması nəzərdə tutulub.

**Respublikanın 51 rayon və şəhəri** – *Bakı, Gəncə, Lənkəran, Mingəçevir, Naftalan, Sumqayıt, Şəki, Şirvan, Yevlax şəhərləri və Abşeron, Ağcabədi, Ağdaş, Ağstafa, Ağsu, Astara, Beyləqan, Bərdə, Biləsuvar, Cəlilabad, Daşkəsən, Füzuli, Gədəbəy, Göyçay, Göygöl, Hacıqabul, Xaçmaz, Xızı, İmişli, İsmayıllı, Kürdəmir, Qazax, Qəbələ, Quba, Qubadlı, Qusar, Qobustan, Masallı, Neftçala, Saatlı, Sabirabad, Salyan, Samux, Siyəzən, Şabran, Şamaxı, Şəmkir, Şuşa, Tərtər, Tovuz, Zaqatala və Ucar* **2022-ci ildən xərclərini öz gəlirləri hesabına təmin edəcək.**






**Yerli xərclərin istiqamətləri:**

- məktəbəqədər uşaq müəssisələri
- ətraf mühitin mühafizəsi
- icra hakimiyyəti orqanlarının saxlanılması
- mənzil və kommunal təsərrüfatı
- nəqliyyat və rabitə
- mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət sahələri
- sosial təminat
- əsas bölmələrə aid edilməyən tədbirlər

- məktəbəqədər uşaq müəssisələrinə – **380,8 milyon manat**
- ətraf mühitin mühafizəsinə – **202 milyon manat**
- icra hakimiyyəti orqanlarının saxlanılmasına – **163,6 milyon manat**
- mənzil və kommunal təsərrüfatına – **149,2 milyon manat**
- nəqliyyat və rabitəyə – **44,1 milyon manat**
- mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət sahələrinə – **15,6 milyon manat**
- sosial təminat – **5 milyon manat**
- əsas bölmələrə aid edilməyən tədbirlər üzrə digər fəaliyyət – **24,7 milyon manat**

# DÖVLƏT BÜDCƏSİ KƏSİRİNİN HƏDDİ VƏ MALİYYƏLƏŞDİRİLMƏSİ

2022-ci ildə dövlət büdcəsi kəsirinin yuxarı həddi **3 milyard 63 milyon manat** məbləğində nəzərdə tutulur. Bu, ÜDM-nin 3,5 faizi həcmindədir.




**Büdcə kəsirinin bağlanması üçün əsas mənbələr:**

- 2022-ci ilin 1 yanvar tarixinə olan büdcənin vahid xəzinə qalığı – **1 milyard 256 milyon manat**;
- Özəlləşmədən daxilolmalar – **114 milyon manat**.
- Borclanma hesabına daxilolmalar – **1 milyard 693 milyon manat**.




397
517
55.01

**Azərbaycan Respublikası Maliyyə Nazirliyi**
AZ1022, Bakı şəhəri, Səməd Vurğun küç., 135
Tel: +994 12 404 46 99;
Fax.: +994 12 404 47 20
e-mail: office@maliyye.gov.az

**www.maliyye.gov.az**
*facebook.com/maliyyegovaz*
*twitter.com/maliyyegovaz*
*instagram.com/maliyyegovaz*

*Dekabr 2021*